*Heydər Əliyev - xalq birliyi əbədidir!*

# AĞSTAFA



*“Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır”.*
*Heydər Əliyev*

Qəzet 1991-ci ildən çıxır İctimai-siyasi qəzet № 10 (1050) 16 may 2019-cu il Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

# Prezident İlham Əliyev XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olub

Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi - “WorldFood Azerbaijan” və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - “Caspian Agro” sərgiləri ilə tanış olub.

Kənd təsərrüfatı naziri İnam Kərimov və “Caspian Event Organisers” şirkətinin regional direktoru Edvard Straxan dövlətimizin başçısına sərgilərlə bağlı məlumat verdilər.

Bildirildi ki, dünyanın 32 ölkəsini təmsil edən 440 şirkəti, eləcə də 11 milli və regional qrupu bir araya gətirən builki sərginin ekspozisiya sahəsi ötən illə müqayisədə 20 faiz artıb. Artım iştirakçıların sayında da qeydə alınıb. “WorldFood Azerbaijan” və “Caspian Agro” sərgilərində Azərbaycanla yanaşı, Litva, Rusiya, Sloveniya, Ukrayna, Xorvatiya və digər ölkələri təmsil edən şirkətlər də yer alır. Bu il İtaliya, Türkiyə və Şri-Lanka sərgidə milli stendlərlə çıxış edirlər. Ənənəvi olaraq, sərgidə Rusiyanın Başqırdıstan, Penza, Voronij, Vladimir, Kabarda-Balkar kimi regional qrupları da iştirak edir. Bu il sahəsi genişlənmiş Belarus Respublikasının milli stendinin ekspozisiyası iki zalda - ikinci və sərginin tarixində ilk dəfə açılmış üçüncü zalda təqdim olunur. Burada, eyni zamanda, qida sənayesi sahəsində fəaliyyət göstərən startaplar, mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini təqdim edirlər. Gürcüstan və Niderland Krallığı sərgidə milli qruplarla təmsil olunur.



Prezident İlham Əliyevə Aqrar Məşğulluğun Artırılması Layihəsi barədə məlumat verildi.

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Ağstafada ümumrayon tədbiri keçirildi





Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96 illik yubileyi tamam olur. Hər il ölkəmizin hər bir guşəsində 10 may Azərbaycanın ən şərəfli tarixi günlərindən biri kimi qeyd olunur. O cümlədən Ulu öndərimizin 96 illiyi Ağstafada da böyük izdihamla qeyd olundu. Ağstafa rayon Heydər Əliyev Mərkəzinin önündə ümummilli liderin abidəsi ziyarət olunaraq önünə gül dəstələri düzüldü.



Tədbirdə Ağstafa rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatlarının kollektivləri, rayonun ərazisində yerləşən N saylı hərbi hissələrin əsgər və zabitləri, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdi. Gülqoyma mərasimindən sonra tədbir iştirakçıları Mərkəzin həyətində kitab və gənc rəssamların əl işlərindən ibarət sərgilərə tamaşa etdilər, uşaqların ifasında seirlər səslendirildi.

Daha sonra isə Heydər Əliyev Mərkəzinə ekskursiya olundu. Mərkəzin foyesində iri ölçülü ekranda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olundu. Tədbir iştirakçıları Mərkəzdə ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotosərgi ilə də tanış oldular.



# Sürətli inkişaf davam etdirilməlidir

Rayon icra hakimiyyətinin başçısı yanında keçirilən növbəti şura iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 30-da Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasından irəli gələn məsələlərin Ağstafa rayonunda həyata keçirilməsinə dair məsələ müzakirə olundu.



İclasda məsələ ilə əlaqədar RİH başçısının müavini- Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Aydın Hacıyev məruzə etdi.

Məruzəçi qeyd etdi ki, dövlətimizin başçısı İlham Əliyev keçən il prezident seçkilərindən sonra islahatların yeni mərhələsinin başladığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirdi.

İlin əvvəlindən böyük həcmli sosial paketin icra edildiyini deyən Prezident İlham Əliyev minimum əməkhaqqının, minimum pensiyaların, məcburi köçkünlərə verilən müavinətlərin, tələbələrin təqaüdlərinin və digər sosial müavinətlərin artdığını bildirdi, problemli kreditlərlə bağlı məsələnin və vaxtilə tikilən, lakin istismara qəbul edilməyən binalarla bağlı yaranan problemin həll olunduğunu vurğuladı. Dövlətimizin başçısı ilin sonuna qədər elektrik enerjisi, qazlaşdırma, içməli su, meliorativ tədbirlər, xarici sərmayələrin cəlbi, məcburi köçkünlər və şəhid ailələrinin yeni mənzillərlə təmin olunması ilə bağlı görüləcək işlərdən danışdı. Son 15 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradıldığını, əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşıda yeni vəzifələr qoyduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, bu il də sosial infrastruktur layihələrinin icrası diqqət mərkəzində saxlanılacaq.

2019-cu ilin birinci rübü ərzində Ağstafa rayonu üzrə ümumi məhsul buraxılışının həcmi 26231.6 min manat olmuşdur. Keçən ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının həcmi 5.9 faiz artmış, nəqliyyat xidmətində 6.7 faiz, rabitə xidmətində 13.0 faiz, ticarət sahəsində 6.5 faiz artım olmuşdur.

"Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq Ağstafa rayonunun 2019-cu il büdcəsinin xərcləri 8945000 manat, mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait 4246000 manat, gəlirlər 4699000 manat təsdiq edilmişdir. 2018-ci ilə nisbətən 2019-cu ildə yerli gəlirlər 14000 manat az, xərclər 1448000 manat çox proqnozlaşdırılmışdır. Gəlirlər xərclərin 52,5 faizini təşkil edir. 2019-cu ilin yanvar-mart ayları ərzində yerli gəlirlər üzrə proqnoz 165.0 faiz yerinə yetirilmişdir. Yerli gəlirlər 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 188.6 min manat çox icra olunmuşdur.

Ağstafa rayonu üzrə 2019-cu ilin birinci rübü ərzində həyata keçirilmiş bir sıra tədbirlər nəticəsində rayonda 674 nəfər işlə təmin olunmuşdur. Rüb ərzində 316 nəfər özünəməşğulluq layihəsinə qoşulmaq üçün müraciət etmiş və 16 nəfər təlimlərə cəlb etmişdir. 3 ay ərzində 316 nəfərə işsiz statusu verilmiş və 1 nəfərə işsizlik sığortası təyin olunmuşdur. Hazırda Məşğulluq Mərkəzində 299 vakant iş yerləri mövcuddur.

Statistik göstəricilərə görə bu ilin ötən dövrü ərzində rayonda miqrasiya artımı müsbət saldo ilə nəticələnmişdir.

2019-cu ilin 3 ayı ərzində rayon ərazisində fəaliyyət göstərən banklar və bank olmayan kredit təşkilatları vasitəsilə əhaliyə cəmi 4691.3 min manat kredit verilmişdir.

DSMF-nin Ağstafa rayon şöbəsi 11068 nəfər pensiyaçıya xidmət edir. Rayon üzrə 4903 nəfər sosial müavinət alan qeydə alınmışdır. 2019-cu il 3 ayı ərzində 211 nəfərə əmək pensiyası təyin edilmişdir, bir nəfərə düşən orta aylıq pensiyanın məbləği rayon üzrə 201.71manat təşkil edir. Rüb ərzində əmək pensiyaların maliyyələşdirilməsinə 6.7 milyon manat, müxtəlif növ müavinətlərin ödənilməsinə 184.5 min manat vəsait xərclənmiş və pensiya və müavinətlərin vaxtında ödənilməsi təmin olunmuşdur.

"Azərpoçt" MMC-nin Ağstafa Poçt filialı 2019-cu ilin üç ayı ərzində plan proqnoz tapşırıqlarını 104.1 faiz yerinə yetirmişdir. Ağstafa PF əhaliyə göstərilən xidmətin keyfiyyətini yüksəltməli və kəndlərdə poçt şöbələri üçün yeni binaların tikintisinin həyata keçirilməsi üçün tədbirlər görməlidir.

Məruzəçi qeyd etdi ki, Ağstafa rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Cari ilin yanvar-mart ayları ərzində rayon üzrə kənd təsərrüfatı məhsullarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 431.5 milyon manat və ya 5.9 faiz artmışdır. Bu dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiya, texnika təminatı nəticəsində əldə olunmuşdur.

Rayon üzrə müxtəlif növ kənd təsərrüfatı bitkilərinin yazlıq əkini davam etdirilir. Rayon üzrə 4379 hektar sahədə kartof, tərəvəz və texniki bitkilər, dənli və paxlalı bitkilər, yem bitkiləri əkilmişdir.

Ağstafaçay dəryaçasında hazırda 87.0 milyon kub metr suvarma suyu mövcuddur. Ağstafaçay Hidroqovşaq İstismar İdarəsi tərəfindən cari ilin 3 ayı ərzində 6 ədəd hidrotexniki qurğu, 3 ədəd hidropost və 6 km beton kanallar cari, 1 ədəd selötürən, 2 ədəd suayrıcı qurğular, 2 ədəd dükker əsaslı təmir edilmiş, eləcə də kanallarda lildən və kol-kosdan təmizlənmə işləri aparılmışdır.

Ağstafa Suvarma Sistemləri İdarəsi tərəfindən 2019-cu ilin 3 ayı ərzində suvarma mənbələrindən götürülmüş su ilə 3695 ha kənd təsərrüfatı bitkiləri suvarılmışdır.

Tovuz Subartezian Quyularının İstismarı İdarəsininin Ağstafa İstismar sahəsi 242 ədəd subartezian quyusunun istismarına xidmət edir. Rüb ərzində 16 ədəd subartezian quyusunda cari, 22 ədəd subartezian quyusunda əsaslı təmir işləri aparılmışdır. Rayonunun Düzqışlaq(2), Xılxına, Kolxəlfəli, Qıraq Kəsəmən, Zəlimxan, Aşagı Kəsəmən(2), Xətai, Qırılı, Göycəli, Dağ Kəsəmən kəndlərində cəmi 12 ədəd subartezian quyusunun qazılması işləri həyata keçirilir.

Rayonun içməli su təminatının yaxşılaşdırılması ən vacib məsələlərdəndir. Ağstafa şəhərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədi ilə Vurğun qəsəbəsində su anbarının ərazisində su təmizləyici qurğunun tikintisində son tamamlama işləri aparılır.

Rayonda abadlıq-quruculuq və təmir-tikinti sahəsində sürətli inkişaf təmin edilmişdir. Ağstafa şəhərinin abadlaşdırılması küçə və meydanların yenidən qurulması çoxmənzilli yaşayış bunalarının təmir olunması üçün bir sıra işlər həyata keçirilmişdir.

Rayon mərkəzinin abadlaşdırılması ilə yanaşı rayonun qəsəbə və kəndlərində də abadlıq, tikinti-quruculuq işləri genişləndirilmelidir. Bu sahədə yerli icra nümayəndəlikləri ilə bələdiyyə orqanlarının üzərinə böyük vəzifələr düşür. Nümayəndəliklər və yerli bələdiyyələr sosial problemlərin həllində əhalinin gücündən istifadə olunmasına çalışmalıdırlar.

Ağstafa elektrik şəbəkəsinin xidmətində olan elektrik təsərrüfatında da problemlər mövcuddur. Yeni məhəllələrin elektrikləşdirilməsi həyata keçirilmədiyindən əhali kortəbii, standarta uyğun olmayan dirəklərdən və naqillərdən istifadə edir ki, bu da insan həyatı üçün hər an təhlükə mənbəyidir. Ağstafa şəhəri, Dağ Kəsəmən, Aşağı Kəsəmən, Zəlimxan kəndlərinddə 20-30 il əvvəl salınmış məhəllələrin elektrik təsərrüfatı yararsız vəziyyətdədir. Əhalinin gücü ilə çəkilmiş elektrik xətləri insan həyatı üçün təhlükə mənbəyidir.

Rayonun 39 yaşayış məntəqəsindən 38-nə təbii qaz yanacağı verilmişdir. Ceyrançöl qəsəbəsində daimi yaşayış olmadığından qazlaşdırma məqsədə uyğun sayılmamışdır. Lakin bununla belə rayonun qazlaşdırılmasında və qazın verilməsində problemlər yaşanır.



Yol infrastrukturunun yaxşılaşdırılması, problemlərin aradan qaldırılması istiqamətində bir sıra işlər həyata keçirilmişdir. Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun yenidən qurulması asfalt örtüyü salınması işləri davam etdirilir. Ağstafa 27 saylı Yol İstismar İdarəsi tərəfindən yerli əhəmiyyətli avtomobil yollarının çiyinləri və hərəkət hissəsində yaranan çalalar təmir olunmuşdur. Yolların saxlanılması, istismarının normal təşkili, yol nişanlarının, siqnal dirəklərinin bərpası, təmizlənməsi sahəsində tədbirlər görülməlidir.

2019-cu ilin ötən dövrü ərzində rabitə sisteminin yaxşılaşdırılması sahəsində bir sıra addımlar atılmış, internet istifadəçilərinin sayı çoxaldılmışdır. 2019-cu ilin birinci rübü ərzində 40 abonentə telefon, 289 abonentə genişzolaqlı internet verilmişdir.

2019-cu ilin 3 ayı ərzində rayonda ictimai təşkilatlar, siyasi partiyalarla və kütləvi informasiya vasitələri ilə iş qanunauyğun tənzimlənmiş və dini tolerantlıq təmin olunmuşdur.

Təhsil sahəsində tədrisin səviyyəsinin artırılması, təsilverənlərlə təhsilalanların münasibətlərində yeni məzmunda əlaqələrin formalaşması, şagirdlərin bilik və fərdi yaradıcılığının artırılması, eləcə də müəllimlərin bilik və bacarıqlarının dioqnostik qiymətləndirməsinin keçirilməsi və ümumtəhsil məktəblərinin gənc müəllim kadrları ilə təmin edilməsi istiqamətində rayon Təhsil Şöbəsi üzərinə düşən vəzifələrin icrasına çalışmışdır.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Ağstafa rayonu üzrə 5 yeni məktəb binasının tikintisi, 4 məktəbin isə əsaslı təmiri nəzərdə tutulur. Həmin Proqrama uyğun olaraq qəzalı vəziyyətdə olan Böyük Kəsik kənd tam orta məktbinin yeni binasının tikintisi davam etdirilir. H.Aslanov qəsəbəsində 20 şagird yerlik modul tipli məktəbin quraşdırılması başa çatdırılmışdır.

Rüb ərzində Körpələr evi-uşaq bağçalarının maddi-texniki bazasının möhkəmləndirilməsinə, keyfiyyətli ərzaqla təminatına və təlim-tərbiyyə məslələrinə diqqət artırılmışdır.

Əhalinin sağlamlığının qorunmasına dair dövlət siyasətinin həyata keçirilməsinin təmin edilməsi və movcud olan tibb məntəqələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə Ağstafa Rayon Mərkəzi Xəstəxanası tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. Rayon Mərkəzi Xəstəxanası tərəfindən tibb müəssisələrinin vəziyyəti araşdırılmalı, təlabat və ehtiyacları müəyyənləşdirilməli, onların maddi-texniki bazasının gücləndirilməsi və mövcud nöqsanların aradan qaldırılması istiqamətində konkret tədbirlər həyata keçirilməlidir.

Ağstafa rayon GEM-də 2019-cu ilin üç ayı ərzində müayinə zamanı 7 vərəm, 1 nəfərdə C-1 qeydə alınmışdır. Qeyd olunmuş infeksion xəstələrin evlərində yekunlaşdırıcı dezinfeksiya işləri və ocaqlarda kantaktlar üzərində nəzarət aparılmışdır. Rayonda sanitar təmizliyə riayət olunması, infeksion xəstəliklərin yaranma mənbələrinin profilaktikası sahəsində ardıcıl tədbirlər həyata kecirilməlidir.

2019-cu ilin yanvar-mart ayları ərzində rayonda bir sıra mədəni-kütləvi tədbirlər həyata keçirilmişdir. Rayonda əlamətdar günlərin xüsusilə mədəniyyət və incəsənət xadimlərinin, yazıçı və şairlərin yubileylərinin keçirilməsi, tarixi mədəniyyət abidələrinin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində Ağstafa Regional Mədəniyyət İdarəsi bütün zəruri tədbirləri həyata keçirməli və mövcud imkanlardan istifadə etməlidir.

2019-cu ilin üç ayı ərzində gənclərlə iş sahəsində bir sıra tədbirlər keçirilmiş, respublika səviyyəli tədbirdə rayon gənclərinin iştirakı təmin edilmişdir.

2019-cu ilin birinci rübü ərzində Ağstafa rayonu İcra hakimiyyəti başçısının aparatına vətəndaşların 277 müraciəti daxil olmuş, rayon İcra hakimiyyəti tərəfindən 237 nəfər vətəndaş qəbul edilmiş, yerlərdə 9 səyyar qəbulları keçirilmiş, həmin görüşlərdə 1021 nəfər iştirak etmiş, 91 təklif irəli sürülmüşdür. Qaldırılan problem və təkliflərin 42-si həll olunmuş, 19-nun icrası davam etdirilir, 30 təklifin icrası növbəti aylarda nəzərdə tutulur.

Məruzə geniş müzakirə olundu və qərar qəbul edildi.





# Faşizm üzərində qələbənin 74-cü ildönümü qeyd olundu

9 May faşizm üzərində qələbənin 74-cü ildönümü münasibətilə Böyük Vətən müharibəsi iştirakçıları ilə görüş keçirildi. Ağstafa şəhər Yazıçılar evində keçirilən tədbirdə Ağstafa rayon icra hakimiyyətinin başçısı cənab Nizaməddin Quliyev, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər.



Çay süfrəsi ətrafında keçən görüşü giriş sözü ilə Rayon icra hakimiyyətinin başçısı açaraq bu münasibətlə bütün veteranları təbrik etdi. İkinci Dünya müharibəsi illərində Azərbaycan vətəndaşlarının göstərdikləri igidlik və qəhrəmanlıqları barədə genişsöz açdı. Qeyd olundu ki, ulu öndərimiz Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərin həlli istiqamətində mühüm addımlar atıb. Bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə veteranlar və onların ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində mühüm tədbirlər icra olunur.

Tədbirdə çıxış edən veteranlar və rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin onlara hər zaman göstərdiyi yüksək diqqət və qayğıya görə ölkə başçısına dərin minnətdarlıqlarını bildirdilər. Tədbirdə veteranlarla xatirə şəkli çəkdirildi və onlara hədiyyələr təqdim olundu.

# YAP Ağstafa rayon təşkilatında Ulu öndərin xatirəsinə həsr olunan tədbir keçirildi





Tədbiri YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov giriş sözü ilə açaraq Yeni Azərbaycan Partiyasının yaradıcısı ulu öndər Heydər Əliyevə olan ümumxalq məhəbbətindən, ümummilli liderin xalqımız qarşısındakı xidmətlərindən danışdı. O, qeyd etdi ki, ötən əsrin sonlarında Azərbaycanda mövcud olan mürəkkəb ictimai-siyasi hadisələr, dövlətçilik təcrübəsindən xəbərsizlərin Azərbaycana rəhbərliyi müharibə şəraitində yaşayan ölkəmizi uçuruma aparırdı. İnsanlar təlaş içərisində idilər.

O dövrdə xalqı bir ideya ətrafında birləşdirəcək vahid təşkilata, qətiyyətli liderə ehtiyac duyulurdu. Həmin dövrdə yenicə müstəqilliyini qazanmış respublikamızın həyatında tarixi hadisə, dönüş nöqtəsi oldu. R. Tatarov qeyd etdi ki, Ulu öndərin hakimiyyətə qayıdışı ilə iqtisadi böhranla üzləşən Azərbaycanın inkişaf konsepsiyası, strategiyası müəyyənləşdirildi və ölkəmizin parlaq gələcəyi təmin olundu.

# Ağacəkmə aksiyası keçirildi



Rayonda yaşıllaşdırma işinin aparılması həmişə olduğu kimi, bu gün də diqqət mərkəzində saxlanılır. Cari ilin ötən dövründə şəhərdə yol kənarlarında həmişəyaşıl ağaclar əkilmiş, gül sitilləri basdırılmışdır.

Rayon icra hakimiyyətinin dəstəyi ilə bu günlər ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Ağstafa şəhərində ağacəkmə aksiyası keçirilmişdir. Aksiya günü şəhərdə yerləşən Gənclər parkında 250 ədəd şam ağacı əkilmişdir. Həmin gün şəhərin prospekt və küçələri boyyunca salınmış yaşıllıqlara da xüsusi qulluq göstərilmiş, ağacların dibi əkilmiş və suvarılmışdır. Aksiyada rayonun rəhbər işçiləri, idarə, müəssisə və təşkilatların kollektivləri iştirak etmişlər.

# "Ən yaxşı təqdimat"

Rayon təhsil şöbəsindən qəzetimizə verilən məlumatda bildirilir ki, ümumtəhsil məktəbləri tərəfindən ulu öndərin zəngin siyasi irsi, şərəfli həyat və fəaliyyəti mütəmadi öyrənilir. Bu işi daha da gücləndirmək məqsədilə ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin iştirakı ilə qüdrətli dövlət xadiminin anadan olmasının 96-cı ildönümü ərəfəsində "Ən yaxşı təqdimat" müsabiqəsi keçirilmişdir.

Müsabiqənin rayon mərhələsində rayon üzrə hər məktəbdən bir nəfər şagird iştirak etmişdir. Nəticədə Ağstafa şəhər 2 saylı tam orta məktəbin X sinif şagirdi Məmmədova Lalə Vüqar qızı, Dağkəsəmən kənd 1 saylı tam orta məktəbdən X sinif şagirdi Məmmədzadə Aysel Rəşad qızı, Sadıxlı kənd tam orta məktəbin X sinif şagirdi Sadıqlı Milana Varis qızı fərqlənmişlər. Müsabiqənin respublika mərhələsində isə Məmmədli Lalə Vüqar qızı ikinci yeri tutmuşdur.

# Litvalı qonaqlar Ağstafada olmuşlar



Artıq bir neçə ildir ki, Ağstafa rayonu Litva Respublikasının Briştonas şəhəri ilə qardaşlaşmışlar. Keçən il Ağstafanın nümayəndə heyəti həmin şəhərə səfər etmiş, oranın sosial-iqtisadi həyatı ilə yaxından tanış olmuşlar.

Bu günlər Briştonas şəhərinin nümayəndə heyəti Ağstafada olmuş, şəhərimizdəki Xalçaçılıq fabriki, Ağstafa aqrar sənaye kombinatı ilə yaxından tanış olmuş, şəhərimizdəki mədəniyyət obyektlərindəki iş şəraiti ilə maraqlanmışlır.



# Pedaqoji mühazirələrin qalibləri

Ümumtəhsil məktəblərinin müəllimləri arasında pedaqoji mühazirələrin keçirilməsi artıq gözəl ənənə halını almışdır. Qəzetimiz bu barədə öz öxucularına yeri gəldikcə məlumat verir.

Bu dəfəki pedaqoji mühazirələrin rayon mərhələsində 169 mühazirə dinlənilmişdir. Onlardan ikisi respublika mərhələsində iştirak üçün təqdim edilmişdir. Həmin mühazirə müəllifləri Rayon humanitar təmayüllü liseyin müəllimləri Ramiz Nəsirov və Gülnar Qəhrəmanovadır.

## Xalq artisti Tariyel Qasımov-80

# Sənət fədaisi

***Azərbaycanın teatr və kino tarixində xalq artisti Tariyel Qasımovun öz yeri, öz dəst xətti vardır. Ölkəmizin incəsənət salnaməsinə çoxsahəli yaradıcılığı, gərgin zəhməti, qeyri-adi istedadı ilə şərəfli ad yazdırmış Tariyel Qasımov həm teatr səhnəsində, həm də müxtəlif kinofilmlərdə yaddaqalan obrazlar yaratmışdır. Bu çətin və şərəfli həyat yollarında ömrünün 80 ilini başa vuran xalq artisti doğma el-obamızın, bütün Azərbaycan tamaşaçılarının qanuni iftixarı, fərəhi və şöhrətidir.***




Tariyel İskəndər oğlu Qasımov 1939-cu il fevralın 4-də rayonumuzun Köçəsgər kəndində dünyaya gəlmişdir. Doğma kənddə orta təhsilini başa vurduqdan sonra o, atası İskəndər kişinin iradəsi ilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olmuşdur. Ancaq gənc Tariyelin istəyi, arzusu aktyor olmaq idi. Bu həvəs onda uşaq vaxtı kənd klubunda “Ovod” filminə baxarkən burada Oleq Strijenovun oynadığı Artur roluna ürəkdən vurulandan sonra başlamışdır. Həmin axşamdan sonra balaca Tariyeldə aktyor olmaq arzusu baş qaldırmışdı. Bu arzu onu 1960-cı ildə, Bədən Tərbiyəsi İnstitutundan yarımçıq ayırıb Teatr İnstitutunun kino və teatr aktyorluğu fakültəsinə gətirib çıxarır.

1964-cü ildə Teatr İnstitutunu müvəffəqiyyətlə bitirən Tariyel Qasımov təyinatla Akademik Dövlət Dram Teatrına göndərilir. Amma nədənsə gənc aktyor Gənc Tamaşaçılar Teatrını seçir və iki il burada işlədikdən sonra Naxçıvan Dövlət Dram Teatrına dəvət olunur. Az sonra isə İrəvanda Azərbaycan Dövlət Dram Teatrı yaratmaq üçün oraya göndərilir. Tariyel Qasımov böyük zəhmət hesabına Azərbaycan teatrı yaradır və bu teatrın ilk aktyorlarından biri olmuşdur.

Tariyel Qasımov 1968-ci ildə yenidən Bakıya qayıdır və “Azərbaycanfilm” kinostudiyasında rejissor assistenti kimi fəaliyyət göstərməyə başlayır. Üç il kinostudiyada müxtəlif filmlərə həyat verilməsində bilavasitə iştirak etdikdən sonra nəhayət onu Gənc Tamaşaçılar Teatrına dəvət edirlər. Bu teatrın səhnəsində bir-birindən maraqlı rollar yaratmış, özünü güclü sənətkar kimi, gözəl xarakter ustası kimi göstərə bilmişdir. Böyük və kiçik rolların hər birinə məsuliyyətlə yanaşan, hər bir obraza öz nəfəsini qatan aktyor bu illər ərzində milyonlarla tamaşaçı rəğbəti qazanmışdır.

Görkəmli sənətkarın incəsənət aləmindəki fəaliyyətinin əsas bir qolunu da kino fəaliyyəti təşkil edir. Onun kino fəaliyyəti “Azərbaycanfilm” kinostudiyasının istehsalı olan “Lifçi qız” filmi ilə başlayıb. Bundan sonra “Tacikfilm”, “Türkmənfilm” və “Özbəkfilm” kinostudiyalarında onlarca müxtəlif xarakterli obrazlar yaratmışdır. 1981-1983-cü illərdə Almaniyanın “DEFA” film və “Mosfilm”in çəkdikləri bir neçə kinofilmdə müxtəlif hərbçi rollarını ifa etmişdir.

Rejissor kimi də Tariyel Qasımovun fəaliyyət göstərməsi diqqəti cəlb edir. O, müxtəlif illərdə Gənc Tamaşaçılar Teatrında, Qazax, Ağdam, İrəvan, Dağıstan, Naxçıvan teatrlarında bir çox tamaşalara quruluş vermişdir . Maraqlıdır ki, bəzi teatrların yaranması, yenidən fəaliyyətə başlaması da Tariyel Qasımovun adı ilə bağlıdır. Naxçıvanda və İrəvanda Dövlət Dram Teatrlarının fəaliyyətini nizama saladıqdan sonra bacarıqlı aktyor 1997-ci ildə Qazax Dövlət Dram Teatrının yenidən fəaliyyətə başlaması, Dağıstanda Dərbənd Azərbaycan Dövlət Dram Teatrının yaradılması üçün var qüvvəsi ilə çalışmışdır. Həmin teatrların bu gün də fəaliyyət göstərməsi məhz bacarıqlı aktyor Taryel Qasımovun adı ilə bağlıdır.

Sevimli aktyorun teatr və kino sahəsindəki yorulmaz fəaliyyəti dövlət tərəfindən lazımınca qiymətləndirilmişdir. O, 1979-cu ildə gənc nəslin tərbiyəsində, teatr və kino sahəsində göstərdiyi xidmətlərə görə “Qabaqcıl maarif xadimi” və “Republikanın Əməkdar artisti” fəxri adlarına layiq görülmüşdür. 1991-ci ildə isə sənət zirvəsinin ən yüksək pilləsinə qalxaraq “Azərbaycan Respublikasının Xalq artisti” adını almışdır.

Teatr və kino aləmində sənət fədaisi kimi şöhrət qazanmış xalq artisti Tariyel Qasımovun 80 illik həyat yolu heç də hamar olmamışdır. Bu yolda o, kövrək sevinc də görüb, sarsıdıcı kədər də. Lakin bunlara dözərək öz məqsədinə çatmağa, sənətin zirvəsinə qovuşmağa can atıb. Hər dəfə səhnəyə çıxanda tamaşaçıların üzündə duyduğu sevinc, ürəkdən gələn gülüş onun arzuladığı ən böyük xoşbəxtlik olub. Budur sənət adamının qazandığı ən böyük mükafat!

Xalq artisti Tariyel Qasımov artıq sənətkar ömrünün 80-ci ilini arxada qoymuşdur. Bu yaxınlarda onun üçün doğma ocaq olan Gənc Tamaşaçılar Teatrında sənət dostları, pərəstişkar tamaşaçılar, teatr vəkino xadimləri ilə birlikdə xalq artistinin anadan olmasının 80 illiyi böyük təntənə ilə qeyd edilmişdir. Yubiley mərasimində həyatını bütövlüklə sənətə, sənətkarlığa və xalqa həsr etmiş sənət fədaisininxalq artistinin insanii keyfiyyətlərdən, yaratdığı rəngarəng obrazlardan maraqlı faktlar gətrilmiş, fikirlər söylənmişdir.

***Firdovsi Heydərli***

# Finala vəsiqə

Qəzetimizn ötən saylarında məlumat vermişdik ki, Respublika Təhsil Nazirliyi tərəfindən fənn olimpiadalarının rayon mərhələsi keçirilmiş, burada iştirak edən 400-ə yaxın IX-XI sinif şagirdlərinin 60 nəfəri yarımfinal turuna vəsiqə qazanmışdır. Şəmkir şəhərində keçirilən bu yarımfinal turunda isə 5 nəfər şagirdimiz finala vəsiqə qazanmışdır.

Son nəticə-final turu mayın 29-da Bakı şəhərində İ. Əfəndiyev adına elitar gimnaziyada keçiriləcəkdir. Ümid edirik ki, rayonumuzun yetirmələri bu yekun turundan könülaçan xəbərlə qayidacaqlar.

## Hörmətli oxucular!

***Rayonumuzun yeganə mətbu orqanı olan***

***“AĞSTAFA”***

***qəzetinə 2019-ci ilin ikinci yarım ili üçün abunə yazılışı davam edir. Qəzetə rayon mətbuat yayımında və redaksiyanın özündə abunə yazıla bilərsiniz. Qəzetin yarım illik abunə qiyməti 10 manatdır.***

***Redaksiyanın Kapital bankın Ağstafa filiallındakı hesab nömrəsi AZ04AİİB33080019445200229152,***

***VÖEN nömrəsi isə 3600081691-dir.***

***Qəzetimizə abunə yazılanlara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.***

# Bələdiyyə komandalarının futbol yarışı başa çatdı



Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Ağstafa rayon Gənclər və İdman İdarəsinin və Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatının birgə təşkilatçılığı ilə aprel ayının 5-dən may ayının 10-dək rayonun bələdiyyə komandaları arasında futbol üzrə rayon birinciliyi keçirilmişdir. Yarışda ümumilikdə 18 komanda iştirak etmişdir.

Ağstafa şəhər stadionunda təşkil olunan çempionatda komandalar ilk olaraq qruplar üzrə mübarizə aparmışlar. Final yarışı daha gərgin və maraqlı keçmişdir. Finalda Poylu kənd bələdiyyəsinin futbolçuları 1-ci yerə, Ağstafa şəhər bələdiyyəsi futbolçuları 2-ci yerə, Poylu qəsəbə komandası isə 3-cü yerə layiq görülmüşlər.

Bu günlər şəhər mərkəzi stadionunda keçirilən final oyunundan sonra qalib komandalar Rayon icra hakimiyyətinin rəhbərliyi tərəfindən təbrik edilmiş, yarışda fərqlənən futbolçulara Fəxri fərman və qiymətli hədiyyələr verilmişdir.

***Q.Qurbanov***
***Foto Azərindir***

## Etibarsız sayılır

Köçəsgər kənd sakini Fərəcov İbrahim Seyidhəsən oğlunun adına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair JN-1024 A nömrəli Şəhadətnamə və 684 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Pirli kənd sakini Hacıyev İsrafil Murtazə oğlunun adına verilmiş JN-107nömrəli (kod 50211018) Torpağın mülkiyyətə verilməsinə dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Dağkəsəmən kənd sakini Nəcəfov Qabil Abit oğlunun adına verilmiş JN-7582 saylı Torpaq sahəsindən müvəqqəti istifadə hüququna dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev və aparatın məsul işçiləri Tikinti və Memarlıq şöbəsinin müdiri Sənan Mustafayevə, anası

**Laləzar xanımın**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Ağstafa” qəzetinin əməkdaşları Rayon İcra Hakimiyyətinin Tikinti və Memarlıq şöbəsinin müdiri Sənan Mustafayevə anası

**Laləzar xanımın**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirirvə dərin hüznlə başsağlığı verirlər.

---

Rayon Ağsaqqallar Şurasının üzvləri Abış Mustafayevə, həyat yoldaşı

**Laləzar xanımın**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirirvə dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR:**
**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
*“Ağstafa” qəzetinin jurnalist kollektivi*
*Şəadətnamə № 308*

*Redaksiya heyəti*
*L.Eyyubova, L.İsayeva, K.Abbasov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və “Mətbuat firması” mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*